# AĞDAMDA NƏYİM QALDI...





**56 ildir fotojurnalistəm. Bu dünyanın gözəlliklərini, yadda qalan, bəzən kədərli, bəzən də xoşbəxt anlarını fotolentin yaddaşına köçürmüşəm. Həm də təkcə fotolentin yox, bu ecazkar mənzərələri, duyğulu, fərəhli anları, qəlb donduran hadisələri gözlərimlə ürəyimə, qəlb yaddaşıma, beynimə həkk etmişəm...**

Ən qürurverici, kədərli anların şahidi, həm də o anı donduraraq tarixin yaddaşına çevirən biri olmuşam...

Çox yerlər gəzmişəm, Vladivostokdan Anqolayacan, Pribaltikadan Orta Asiyayacan...

Amma Azərbaycanın bölgələrindən hazırladığım fotoreportajlar mənim üçün daha doğma olub. Yenə də bölgələrimizdə aparılan abadlıq, quruculuq işlərini sevə-sevə çəkirəm...

Bu günlərdə isə yolumu Ağdamdan salmışdım...

Fotolar çəkirdim, amma çəkdiklərim heç cür ürəyimə yatmırdı...

Axı bu həmin Ağdam deyildi...

Ağdamın Çörək, Tarix Ölkəşünaslıq muzeylərini, tarzən Qurban Pirimovun xatirə muzeyini, Ağdam şəkil qalereyasını çəkmədən necə deyim ki, bura Ağdamdır...

Ağdamda çox olmuşam, amma 1988-89-cu illərdə orada olarkən yaşadıqlarım, hiss etdiklərim heç zaman yaddaşımdan silinmir...

Dağlıq Qarabağ münaqişəsinin ən qızğın zamanları idi və Ağdam əhalisinin necə mətanətlə öz yurdlarının keşiyində durduqlarının şahidi idim. Ağdamlılar deyirdilər ki, nəinki Ağdam, heç Xankəndi də ermənilərə qalmayacaq...

Ağdamın işğalından əvvəl, sonuncu dəfə 1992-ci ildə oldum orada...

İndinin özündə də o mənzərələr gözlərim önündə canlananda az qalır ürəyim partlaya...

Daha Ağdam o Ağdam deyildi...

Məscidində azanının, dağlarında tütəyinin, meşəsində quşlarının cəh-cəhi kəsilmişdi...

Onları Ağdamı xarabazara çevirən bombaların, qradların, alazanların, çovuyan güllələrin səsi əvəz etmişdi...

Ağdamın ağır günlərini çəkmək isə çox əzabverici idi...

Bu gün oxucularla paylaşdığımız şəkillər Ağdamın bəxtəvər, qayğısız, həm də dar gündə çəkdiyim fotolarıdır...

İnanıram, daha doğrusu əminəm ki, o gün gələcək ki, Ağdamı Gülablıdan Şelliyəcən, Kolanıdan Papravəndəcən qarış-qarış çəkəcəm, özü də daha heç vaxt o şəkillərdə qəm, kədər, nisgil öz əksini tapmayacaq...

***Ağəli MƏMMƏDOV,***
***"Azərbaycan"***





















Azərbaycan.- 2019.- 23 iyul.- S.6.